

# Laçın Zirvəsi

## Qardaşlıq bağlarının geosiyasi güc manifesti

**Əsrlərin sınağından çıxmış Azərbaycan-Türkiyə-Pakistan qardaşlığı bu dəfə öz möhürünü Laçında vurdu. Azadlığın rəmzinə çevrilmiş, gücün və iradənin simvoluna dönmüş Laçın bu dəfə qardaşlıq bağlarının güclənməsinə ev sahibliyi etdi. 28 May - Azərbaycanın Müstəqillik Günündə üç qardaş ölkənin liderləri bu qədim diyarın qoynunda bir araya gələrək həm tarixi yaddaşı, həm də gələcək üçün strateji həmrəyliyi bir daha dünyaya nümayiş etdirdi. Prezident İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistanın Baş naziri Şahbaz Şəriflə Laçında keçirdiyi görüş Cənubi Qafqazın dağlarında səslənən yeni bir çağırış, yeni bir mövqeyin bəyanı idi. Bu, Zəfərin, qardaşlığın və sarsılmaz birliyin təntənəsinə çevrildi. Qeyd edək ki, Laçında Azərbaycan, Türkiyə və Pakistan liderlərinin iştirakı ilə keçirilən üçtərəfli görüş Azərbaycanın regionda yeni geosiyasi reallığının rəsmi təsdiqi kimi strateji əhəmiyyət daşıyır.**

Xatırladaq ki, ilk Zirvə görüşü ötən ilin iyulunda Astanada baş tutmuşdu. Bu, üç ölkənin gələcəyə birgə baxmaq əzmini ortaya qoydu. Həmin görüş üç qardaş ölkənin qarşılıqlı siyasi dəstəyini nümayiş etdirməklə yanaşı, əməkdaşlığın yüksək səviyyəyə keçidinin rəmzinə çevrildi. Görüşdə tərəflər beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəklərini davam etdirmək əzmində olduqlarını vurğuladılar, regional və qlobal məsələlərdə birgə mövqe nümayişinin vacibliyini qeyd etdilər.

Laçında keçirilən Zirvədə ölkə başçımız vurğuladı ki, Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM), habelə D-8 kimi beynəlxalq platformalarda birgə səylərimizi daha da möhkəmləndirmək əzmindəyik. Həmçinin, ölkəmizin ötən il D-8-in 11-ci Zirvə görüşü zamanı yekdilliklə bu təşkilatın üzvü seçilməsi deyilənlərə əyani misaldır.

Artıq bu birlik ənənəyə çevrilib. Prezident İlham Əliyevin sözləri bu yolun davamlılığını ehtiva edən siyasi mesajdır: "Ölkələrimiz və xalqlarımız birgə tarix, mədəniyyət və dəyərlər əsasında bir-birinə bağlıdır. Bir-birimizin uğurlarına sevinmişik, çətin günlərdə bir-birimizin yanında olmuşuq". Qardaşlıq bağları, tarixdən gələn inam mədəniyyətə, ortaq dəyərlərə söykənir. Xüsusi vurğulanmalıdır ki, Azərbaycan, Türkiyə və Pakistan müxtəlif coğrafiyalarda yerləşsə də, eyni taleyin daşıyıcısı, eyni haqqın carçısıdırlar.

Laçın Zirvəsində Pakistan və Hindistan arasında yaranmış son gərginlik haqqında da fikirlər səsləndirildi. Məlumdur ki, Azərbaycan bu prosesləri böyük diqqət və narahatlıqla izləyir. Rəsmi Bakı ilk gündən dost və qardaş Pakistanla həmrəy olduğunu açıq şəkildə ifadə etdi. Pakistan yalnız diplomatik müttəfiqimiz deyil, həm də müstəqilliyimizin ilk günlərindən yanımızda olmuş, səsimizi dünyaya çatdırmış dost ölkədir.

**(davamı 4-cü səhifədə)**



# Laçın Zirvəsi - Qardaşlıq bağlarının geosiyasi güc manifesti

(əvvəli 1-ci səhifədə)

Məhz bu çərçivədə Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif qeyd etdi: "Belə bir şəraitdə Pakistanın bəxti gətirib ki, Türkiyə və Azərbaycan kimi səmimi qardaşları var. Siz əzəmətli qaya kimi bizimlə bərabər dayandınız və biz tərəddüdsüz olaraq sizə etibar edirik. Biz silahdaş qardaşlar kimi sülhü, ədaləti və mənəvi dəyərləri hər zaman üstün tutacağıq". Azərbaycan hesab edir ki, regional münaqişələrin sülh yolu ilə həlli, dialoqa əsaslanan yanaşma və beynəlxalq hüququn norma və prinsiplərinə hörmət hər bir sivil dünyanın təməl dəyərləri olmalıdır. Cammu və Kəşmir münaqişəsinin də məhz BMT Təhlükəsizlik Şurasının qətnamələri çərçivəsində, tərəflər arasında danışıqlar yolu ilə, qarşılıqlı etimad və diplomatik təşəbbüslərlə həll olunması məqsədə uyğun hesab olunur.

Xüsusi vurğulanmalıdır ki, 2020-ci ilin Vətən müharibəsi dönəmində Türkiyənin və Pakistanın göstərdiyi siyasi və mənəvi dəstək unudulmaz həmrəyliyin nümunəsi kimi tarixə yazıldı. O çətin günlərdə səsləndirilən bir cümlə, birgə dalğalandırılan bayraqlar Azərbaycanın mübarizə ruhunu daha da gücləndirdi. Laçında səslənən mesaj bir daha təsdiq edir ki, bizim birliyimiz təsadüfi deyil, bu birlik genetik bağlardan, ortaq ruhdan doğub.

Azərbaycan, Türkiyə və Pakistan - bu üç qardaş ölkənin əməkdaşlığı yeni dünya düzənində strateji güc mərkəzinə çevrilən bir ittifaqdır. Bu gücün arxasında yalnız ortaq dəyərlər, dil və din birliyi deyil, həm də siyasi iradə, iqtisadi dinamizm və hərbi çeviklik dayanır. Mövcud geosiyasi düzəndə iqtisadiyyat və enerji, nəqliyyat və müdafiə kimi sahələr yalnız ölkədaxili inkişafın deyil, qlobal nüfuzun əsas dayaqlarına çevrilib. Azərbaycan özünün strateji coğrafi mövqeyindən və zəngin resurs potensialından istifadə edərək Türkiyə və Pakistanla əməkdaşlıqda bu amilləri yeni yüksəkliklərə daşıyır.

İnvestisiya sahəsində atılan addımlar bu əməkdaşlığın möhkəm iqtisadi bünövrəsini formalaşdırır. Ölkə başçımızın bildirdiyi kimi, Azərbaycanın Türkiyə iqtisadiyyatına artıq 20 milyard dollardan çox sərmayə yatırması və Pakistan iqtisadiyyatına 2 milyard dollarlıq sərmayəyə hazır olması bu münasibətlərin əhatəliliyini bir daha təsdiq edir. Bununla yanaşı, Azərbaycan Türkiyə ilə illik ticarətin dəyərini 15 milyard ABŞ dollarına çatdırmağı hədəfləyir. Bu da o deməkdir ki, iki qardaş dövlət olan Türkiyə və Pakistanla illik ticarətin dəyərinin 17 milyard ABŞ dollarına çatdırılması hədəflənir. Və bu, yalnız başlanğıcdır. Konkret layihələr, sənaye və texnologiya sahəsində ortaq proqramlar artıq həyata keçirilir, regionda yeni iqtisadi mühit formalaşır.

Enerji sahəsində isə Azərbaycan və Türkiyənin əməkdaşlığı qlobal enerji xəritəsini dəyişdirib. Trans-Anadolu və Trans-Adriatik boru kəmərləri kimi layihələr artıq Avropanın enerji təhlükəsizliyində həlledici rol oynayır. Bu gün isə diqqət bərpaolunan enerjiyə yönəlib. Günəş, külək, yaşıl hidrogen layihələri Azərbaycanın və Türkiyənin regional enerji bazarındakı liderliyini daha da möhkəmləndirir. Pakistanın da bu prosesə inteqrasiyası isə Asiya və Avropa arasında enerji körpüsünün genişlənməsi deməkdir. Nəqliyyat sahəsində birgə layihələr isə qitələri birləşdirən real magistrallara çevrilir. Bakı-Tbilisi-Qars dəmir yolu, Zəngəzur dəhlizi, Orta Dəhliz və multimodal yük marşrutları yalnız fiziki infrastruktur deyil - bu yollar siyasi və iqtisadi maraqların ortaq məxrəcidir. Pakistanın bu təşəbbüslərdə iştirakı Azərbaycan və Türkiyənin yaratdığı tranzit imkanlarını daha da genişləndirəcək. Bu yollarla artıq yalnız yük daşınmır - bu yollarla sülh, tərəqqi və qarşılıqlı fayda ötürülür.

Azərbaycan, Türkiyə və Pakistan liderlərinin verdiyi mesajlar bir daha göstərdi ki, bu üçlük bölgədə və regiondan kənarda formalaşan istənilən siyasi və iqtisadi gündəliyin dəyişməz aktorlarıdır. Onların səsləndirdiyi fikirlər, verdiyi bəyanatlar qəti şəkildə sübut etdi ki, Cənubi Qafqazda, Orta Asiyada, hətta İslam dünyasında istənilən qlobal təşəbbüs bu güc mərkəzinin iradəsi və razılığı olmadan həyata keçə bilməz. Rasional düşüncənin, strateji baxışın və diplomatik bacarığın nəticəsində formalaşmış regional sabitliyin sütunu kimi Laçın görüşü bu qəbildən yaddaşlarda qalacaq. Sarsılmaz qardaşlıq, üç liderin nümayiş etdirdiyi qətiyyət və siyasi iradə yaxın siyasi tarixin əsas istiqamətini artıq müəyyənləşdirib və bu milli maraqlar, qarşılıqlı hörmət və ədalətli dünya nizamı prinsipləri üzərində inşa olunur.

**Nurlan ABDALOV,**
**"Respublika".**

Respublika .- 2025.- 31 may (№112).- S.1;4.